Ədəbiyyat qəzeti

7 noyabr 2020-ci il 25

# Dəmir ÇEŞMƏLİ - 70



Hörmətli Dəmir müəllim!

Sizi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa 1990-cı ildə "Novruz" qəzetində dərc olunmuş "Atama məktub" şeiri ilə başlamısınız. "Yola sal məni", "Hələ ki yaz ümidim var", "Araz axır, Kür baxır", "Söz sevgilimdir" kimi ədəbi ictimaiyyətin maraqla qarşıladığı şeir kitablarının müəllifisiniz. Dövri mətbuatda müntəzəm çap olunursunuz.

İxtisasca hüquqşünassınız, uzun illər ədliyyə orqanlarında xidmət etmisiniz. 2002-ci ildən ədliyyə orqanlarından tərxis olunduqdan sonra, bir müddət Bakı Qida Sənayesi Kollecində müəllimlik etmisiniz.

Hörmətli Dəmir müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

***Azərbaycan Yazıçılar Birliyi***

* * *

Küləklər uçurmağa
Ağac ovuna çıxıb.
Yıxıb tozu torpağı,
Sürüyür böyrü üstə.
Aşırımı aşırır,
Əlinə düşən bilir.
Suyu axardan salır,
Bağlayıb çıxışını.
Xatırlamır zirvəni,
Dərədən tutub qalıb.
Bir ovuc qara torpaq,
Qəhəd olub başına.
Çəngələyib ovcuna,
Səpələyə gözünə.
Günün gün düzümünü,
Əldən alıb kor qoyub.
Qulaqları tıxayıb,
Neçə kar yetişdirib.
Dodaqları mumlayıb,
Dilini dilə verib.
Gözlərini qapayıb,
Nurunu nurlandırıb.
Səni nura aparıb,
Məni zülmətə salıb.
Sənin ovcuna düşən,
Mənim yanımnan keçib.
Mən Rəbbimin rəhminə,
Baxa-baxa qalmışam.